**Xalq qəzeti. -** 2022.- 31 dekabr. - № 288. - S. 27.

# "Qusardayam – ləzgi ailəsinin qonağıyam..."

**Məsaim Abdullayev**

**...Bir neçə gün əvvəl Qusara ezamiyyətə getmişdim. Şabran rayonunun ərazisini keçəndən sonra gördüm ki, Qubanın da, Qusarın da bağları, dağları ağappaq qara bürünüb. Yollar buzlu olduğundan maşınlar üçün hərəkət etmək çətin idi.**

Qusarda hər kəs öz işində-gücündə idi. Burada qışın şaxtasına, sazağına vərdiş ediblər. Qusarda bir ailənin timsalında Azərbaycan və ləzgi xalqlarının dostluğu barədə yazmalı idim. Baş redaktorun tapşırığı idi. Şimal bölgəsindən olduğum üçün bu xoş missiyanı mənə həvalə etmişdilər.

Xoşbəxtlikdən burada kimdən, necə yazmaq üçün seçim qarşısında qalmırsan. Hansı kəndə üz tutsan, hansı evə qonaq getsən, sənə xoş üz göstərəcək, gəlişinə sevinəcəklər, iki xalqın həqiqi dostluğundan həyati misallar çəkəcəklər. Qusar Rayon İcra Hakimiyyəti başçısının Balaqusar kənd inzibati ərazisi üzrə nümayəndəsi Teymur Musayevlə Bədirqala kəndində yaşayan sadə əmək adamı Fariz Dadaşbalayevin evində qonaq olanda, bunun bir daha şahidi oldum.

Ləzgi qardaşlarımız qonaqpərvər insanlardır. Bunu bilməyən az adam tapılar. Bu evdə də dərhal süfrə açdılar, samovar qaynadıb çay gətirdilər. Süfrəyə mürəbbə və şirniyyat düzdülər.

Fariz milliyyətcə ləzgidir, 39 yaşı var. Yoldaşı Peykər isə azərbaycanlıdır. Hər ikisi Azərbaycan və ləzgi dillərində səlis danışırlar. Hər iki dildə gözəl mahnılar, bayatılar bilirlər. Bu iki xalqın folkloruna, musiqisinə olan sevgini övladlarına ötürürlər.

Fariz və Peykər bir-birlərini sevib ailə qurublar. Qohum-qonşu, el arasında yaxşı, səmimi insanlar kimi tanınaraq hörmət qazanıblar. Hazırda bu mehriban və zəhmətkeş ailədə üç gözəl övlad böyüyür. Ailənin böyük qızı Fidanın on iki, bacısı Fatimənin yeddi, ailənin sonbeşiyi Fəqanın isə cəmi iki yaşı var.

Bu arada Farizin atası el ağsaqqalı Sirus kişi gəlib çıxdı, gəlinindən çox razılıq etdi. Dedi ki, gəlini ona atasına baxan kimi diqqət və qayğı göstərir. Sirusun həyat yoldaşı – Peykərin qayınanası həmin gün evdə deyildi. Bakıya qonaq getmişdi.

Sirus kişinin sözlərindən anladım ki, qayınanası da gəlinini doğma balası qədər çox istəyir. Sirus kişi həmçinin söylədi ki, Peykər ləzgi mətbəxinə mənsub olan elə gözəl yeməklər bişirir ki, dadı damağında qalır. Doğrudan da, ev sahiblərinin təkidi ilə evin gəlininin bişirdiyi "ləzgi xəngəli"ni böyük iştahla yedim.

Mən Fariz və Peykəri gələcək planları, arzu və düşüncələri barədə çox danışdıra bilmirdim. Onlardan bu barədə söz soruşanda hər ikisi hörmət və nəzakətlə üzlərini evin ağsaqqalına – Sirus kişiyə tərəf çevirirdilər.

Mən onları başa düşürdüm, yəni, ağsaqqal olan yerdə onların cavab verməsinə ehtiyac yoxdur. Adət belədir, hər kəs öz yerini yaxşı bilir.

Bu arada mobil telefonuma zəng gəldi. İş yoldaşım, tanınmış jurnalist Zərifə Bəşirqızı idi. Qəzetin səhərki nömrəsinə "Sağlamlıq guşəsi" üçün iki xəbər hazırladığını söylədi. Səsimin uzaqdan gəldiyini hiss edib harada olduğumu soruşdu.

Mən bu yerdə şəstlə dedim:

–Qusardayam, bir ləzgi ailəsinin qonağıyam...

Zərifə xanım bütün qusarlı dostlara, qardaşlara öz səmimi salamlarını göndərdi. Qusarda imkan olsa, onun tələbə yoldaşı, hazırda "Qusar" qəzetinin redaktoru vəzifəsində çalışan Vidadi Sevzixanov ilə görüşməyimi məsləhət gördü.

Əlbəttə, qonaq getmək yaxşı şeydir, amma gərək ev sahibinin də vaxtını çox almayasan. Üstəlik, Teymur müəllimin əl telefonuna tez-tez zənglər gəlirdi. Kimlərsə ondan nə isə soruşur, məsləhət alırdılar.

Sözün qısası, Dadaşbalayevlər ailəsi ilə mehribancasınna sağollaşdıq. Bundan sonra işgüzarlığı ilə kənd sakinlərinin rəğbətini qazanan, burada hamının "icra nümayəndəsi" deyə çağırdığı Teymur Musayevin kabinetinə gedib bəzi qeydlər götürdüm.

Öyrəndim ki, Balaqusar, Həsənqala, Bədirqala və Köhnə Xudat-Qazmalar kəndləri bir inzibati ərazi nümayəndəliyində birləşib. Birinci iki kənddə əsasən azərbaycanlılar, Köhnə Xudat-Qazmalar kəndində isə ləzgilər məskunlaşıblar. Bütövlükdə, bu dörd kənddə 4 min 385 nəfər əhali yaşayır. Bədirqala kəndində isə hazırda 830 sakin var. Bunlardan 270 nəfəri ləzgi, qalanları isə azərbaycanlıdır.

Teymur Musayev sonra fəxrlə vurğuladı ki, bir-birinə çox yaxın ərazidə yerləşən bu kəndlərin sakinləri arasında heç vaxt milli zəmində narazılıq, ayrı-seçkilik olmayıb. Son illər dostluq, qardaşlıq əlaqələri daha da güclənib.

Bu mövzuda söhbəti Qusar RİH başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ceyhun Hacıyevlə davam etdirəndə, həmsöhbətim bildirdi ki, Qusar rayonunda azərbaycanlılarla ləzgilər arasında tarixən dərin dostluq əlaqələri formalaşıb və bugünkü nəsillərin ən ümdə vəzifələrindən biri həmin ənənələri davam etdirmək və gücləndirməkdir.

– Azərbaycan bizim hər birimizin doğma anasıdır. Ölkəmizdə məskunlaşan bütün xalqlar, hər bir vətəndaş bu dövlətin, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin daimi himayəsi, diqqət və qayğısı ilə əhatə olunub.

Bəli, həqiqətən dostluq böyük milli və bəşəri dəyərdir. Azərbaycanın hər yerində olduğu kimi, Qusarda da bu böyük mənəvi sərvətin qədrini və dəyərini bilirlər.